# AZƏRBAYCAN RESPUBLİKASI NAZİRLƏR KABİNETİNİN QƏRARI

**№ 426** **Bakı şəhəri, 28 oktyabr 2020-ci il**

**“Xüsusi karantin rejimi ilə bağlı əlavə tədbirlər barədə” Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2020-ci il 12 sentyabr tarixli 336 nömrəli Qərarında dəyişiklik edilməsi haqqında**

“Sanitariya-epidemioloji salamatlıq haqqında” Azərbaycan Respublikası Qanununun 25-ci maddəsinə və Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2020-ci il 28 fevral tarixli 73-1 nömrəli Qərarı ilə təsdiq edilmiş “Yoluxucu, parazitar və kütləvi qeyri-yoluxucu xəstəliklərin əmələ gəlməsi, yaxud yayılması təhlükəsi yarandıqda karantin-təşkilat, profilaktika və digər zəruri tədbirlərin görülməsi Qaydaları”na əsasən Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

**1.** “Xüsusi karantin rejimi ilə bağlı əlavə tədbirlər barədə” Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2020-ci il 12 sentyabr tarixli 336 nömrəli Qərarında aşağıdakı dəyişikliklər edilsin:

1.1. 1.1.2-1-ci yarımbəndə “Lənkəran rayonunun” sözlərindən əvvəl “Lənkəran şəhərinə,” sözləri, “Zaqatala” sözündən sonra “, Cəlilabad, Masallı” sözləri əlavə edilsin;

1.2. 1.1.15-ci yarımbəndə “Zaqatala” sözündən sonra “, Cəlilabad, Masallı” sözləri əlavə edilsin.

**2.** Bu Qərar 2020-ci il 29 oktyabr saat 00:00-dan qüvvəyə minir.

***Əli ƏSƏDOV***

***Azərbaycan Respublikasının Baş Naziri***

Xalq qəzeti 2020.- 29 oktyabr.- S.14.